
Işi


US ÖLKƏSİ
ƏYYUBUN VƏ AİLƏSİNİN MALİKANƏSİ
ƏYYUB YEDDİ OĞUL VƏ ÜÇ QIZIN ATASI İDİ. BÜTÜN ŞƏRQDƏ YALNIZ BİR ZƏNGİN İNSAN KİMİ TANINMIRDI.
O, HƏYATINI ALLAHA, AİLƏSİNƏ, DOSTLARINA VƏ HƏMVƏTƏNLƏRİNƏ HƏSR ETMİŞ BİR KƏS KİMİ TANINIRDI.
EV SAHİBİ SAĞ OLSUN!
ƏYYUB! BU ADAM ŞƏXSƏN MƏNİM ÜÇÜN NÜMUNƏDİR. ÜMİDVARAM ÖVLADLARIM DA ONDAN NÜMUNƏ GÖTÜRƏCƏKLƏR.
AY MƏNİM KÖHNƏ DOSTUM ELİFAZ! SƏN ÇOX SƏXAVƏTLİSƏN!
MƏN SƏXAVƏTLİYƏM? GÖR BİZƏ NECƏ ZİYAFƏT AÇMISAN!
EH, SƏN Kİ, MƏNİM DOSTUMSAN.
SƏN İSƏ MƏNİM AİLƏ ÜZVÜM KİMİSƏN.
ƏN YAXIN DOSTLARI HƏR TƏRƏFDƏN ONUN YANINA GƏLDİLƏR...

ƏYYUB 1:1-3



O "AİLƏ" DEYİR!
ƏYYUB, SƏNDƏN ÇOX AİLƏNİ SEVƏN TAPILMAZ.
TEMANLI ELİFAZ. TEMAN ÖZ MÜDRİKLİYİ İLƏ MƏŞHURDUR.
BƏLİ, HƏM AİLƏSİNİ, HƏM DƏ MÜDRİKLİYİ SEVƏN İNSAN.
ŞUAHLI BİLDAD. İBRAHİMİN NƏSLİNDƏN OLAN ŞUAHIN NƏTİCƏSİDİR. ŞƏRQDƏN, ƏRƏBİSTAN SƏHRALARIN-DAN GƏLİB.
ƏYYUB! BU ZƏNGİNLİYİ VƏ BU AİLƏNİ NECƏ ƏLDƏ ETMİSƏN?
DANIŞ, BİLİM, MƏN DƏ BUNU ETMƏK İSTƏYİRƏM.
NAAMATLI SOFAR. SƏRHƏDDƏ YERLƏŞƏN NAAMAT ŞƏHƏRİNDƏNDİR.
SƏXAVƏTLİ, SADİQ VƏ DÜZGÜN İNSAN OLAN ƏYYUBUN SAĞLIĞINA!
YAXŞI Kİ, HƏLİM ADAMDIR. ƏKS HALDA BU QƏDƏR TƏRİF ONU ÇAŞDIRARDI.
ELİHU ƏYYUBUN YAXIN DOST-LARI ARASINDA ƏN CAVANDIR. ADININ MƏNASI BELƏDİR: "ODUR ALLAH".


ATA?
MƏN GEDİRƏM. OMAR QONAQLIĞA ÇAĞIRIB.
NƏ YAXŞI Kİ, UŞAQLARIM BİR YERDƏ OLMAĞI XOŞLAYIR-LAR!
GEDİRSƏN?
ALİCƏNABLIĞI UNUTMA! BUNU BACI-QARDAŞLARI-NA DA XATIRLAT.
XATIRLADA-
ŞETƏ GÖSTƏRİŞLƏR VERMİŞƏM. O SƏNİNLƏ GEDƏCƏK, ORADA OLACAQ VƏ SƏHƏR SƏNİNLƏ EVƏ QAYIDACAQ.
HAMIYA BİZDƏN SALAM DEYİN!
ATA, HƏR ŞEYƏ GÖRƏ ÇOX SAĞ OL. BİZƏ GÖRƏ QURBAN DA KƏSİRSƏN. SƏNƏ VƏ ALLAHA LAYİQ OLMAĞA ÇALIŞACAĞIQ. SÖZ VERİRƏM!

ƏYYUB 1:4


QURBANLAR?
ƏYYUB ÖVLADLARINA GÖRƏ QURBAN KƏSİR, ÇÜNKI ZİYAFƏT VAXTI GÜNAH EDƏ BİLƏRLƏR.
GÜNAHLARIMIZA GÖRƏ QURBAN GƏTİRİLMƏLİDİR. BIZ MÜQƏDDƏS DEYİLİK, PAK DEYİLİK.
ONLARI ÇOX İSTƏYİRƏM, BUNA GÖRƏ DƏ ONLARIN ƏVƏZİNƏ ALLAHA QURBAN GƏTİRİRƏM.
BUNU NƏ VAXT EDƏ-CƏKSƏN?
ONLARIN ZİYAFƏTİ BÜTÜN GECƏ DAVAM EDƏ-CƏK. BUNA GÖRƏ DƏ, QURBANI SƏHƏR GƏTİRƏCƏYƏM.
NARAHAT OLMA. ÖZ ZİYAFƏTİMİZİN VAXTINI QISALT-MAYACAĞAM.
HƏ, MƏN ELƏ BUNU EŞİTMƏK İSTƏYİRDİM.
BAŞQA ADAMLARA GÖRƏ QURBAN GƏTİRƏN BIR ADAM VARSA, O DA SƏNSƏN, ƏYYUB.
XEYR, ELİHU. SƏN MƏNİ HƏDDİNDƏN ARTIQ TƏRİF-LƏYİRSƏN.
MƏN BAŞQALARI KİMİ ADİ İNSANAM.
ALLAHIN XEYİRXAHLIĞI, ALLAHIN MÜQƏDDƏSLİ-Yİ QARŞISINDA BIZ HAMIMIZ GÜNAHKAR VƏ NÖQSANLIYIQ...
İNDİ İSƏ YEMƏK SOYUYUR, GƏLİN BAŞLAYAQ!


NÖVBƏTİ GÜN, SƏHƏR TEZDƏN.
ƏYYUB DEDİYİ KİMİ ETDİ.
O, HƏMİŞƏ SÖZÜNÜ YERİNƏ YETİRİRDİ.
EY ALLAHIM, ÖZ ÖVLADLARIMIN ADINDAN SƏNİN QARŞINA GƏLİ-RƏM.
ONLARI MƏNƏ BÖYÜK XEYİR-DUA OLARAQ VERMİSƏN.
ÜRƏKLƏRİNDƏ SƏNƏ QARŞI GÜNAH EDİBLƏRSƏ, BU QURBANI QƏBUL ET!
ƏYYUB ALLAHIN ONUN HƏRƏKƏT-LƏRİNİ MÜŞAHİDƏ ETDİYİNİ BİLİRDİ.
LAKIN O, BAŞQASININ DA ONU MÜŞAHİDƏ ETDİYİNDƏN XƏBƏRDAR DEYİLDİ.

ƏYYUB 1:5


BİR GÜN İLAHI VARLIQLAR RƏBBİN HÜZURUNA QALXDILAR.
HƏMİN O NAMƏLUM MÜŞAHİDƏÇİ OLAN ŞEYTAN DA ONLARA QOŞULUB GƏLDİ.
O, GÜNAHA BATMIŞ VARLIQ İDİ.
İLK DƏFƏ GÜNAHA O BATMIŞDI.
ŞEYTAN.


HARADAN GƏLİRSƏN?
DÜNYANI GƏZIB-DOLAŞ-MAQDAN.
SEVDİYİN HEYVANLARI MÜŞAHİDƏ EDİRDİM.
BƏLİ.

ƏYYUB 1:6-7


QULUM ƏYYUBA YAXŞI-YAXŞI NƏZƏR SALA BİLDİNMİ?
BƏLİ.
AXI YER ÜZƏRİNDƏ ONUN KİMİSİ YOXDUR. O, KAMİL, ƏMƏLİ-SALEH, ALLAHDAN QORXAN VƏ ÖZÜNÜ ŞƏRDƏN UZAQ SAXLAYAN BİR ADAMDIR.
AH, BƏLİ.
ƏYYUB SƏNDƏN BOŞ YERƏMİ QORXUR?
ONU QORUYURSAN, ONA BƏRƏKƏT VERMİSƏN.
GÖZƏL EVİ, AİLƏSİ VAR; SÜRÜLƏRİ BÜTÜN ÖLKƏNİ BÜRÜYÜB.
AMMA...
BUNLARI ƏLİNDƏN ALAN KİMİ SƏNƏ LƏNƏT OXUYACAQ.
İCAZƏ VER HƏR ŞEYİ ƏLİNDƏN ALIM. ÖZÜN GÖRƏCƏKSƏN.
YAXŞI, SAHİB OLDUĞU HƏR ŞEYİ SƏNƏ TƏSLİM EDİRƏM, AMMA ONA TOXUNMA.
ONA TOXUN-MAYACAĞAM.
BELƏLİKLƏ, İTTİHAMÇI RƏBBİN HÜZURUNDAN GETDİ.


ƏYYUB 1:8-12




ƏYYUB 1:14


ƏYYUBUN TORPAĞININ KƏNARINDAKI TƏPƏLƏRDƏ, SÜRÜLƏRİN OTARILDIĞI YERDƏ.
O QOXUNU HİSS EDİRSƏN?
HAMI!
QAÇIN!
ORADA...


ƏYYUBUN DƏVƏ KARVANI.
EŞİTDİN?
ORADAN GƏLİR. O NƏDİR Kİ?
XALDEYLİLƏR!
HÜCUM EDİRLƏR!
HƏR YERDƏN GƏLİRLƏR!
ƏHATƏ OLUNMUŞUQ!

ƏYYUB 1:17


ƏYYUBUN BÖYÜK OĞLU ÖMƏRİN EVİNDƏ.
YAXŞI İSTİRAHƏT EDƏ BİLDİN?
BİLDİM. SİZ VƏ CƏMİLƏ İSƏ ÇOX SƏS SALIRDINIZ.
MƏN YATMAĞA GEDƏNDƏN SONRA ƏLİ ÖZ UDUNDA ÇOXMU ÇALDI?
ÇOX ÇALDI, ÇOX ÇALDI.
GEDƏK GÖRƏK YEMƏYƏ NƏ VAR.
ƏRİM HƏLƏ YATIB, AMMA SƏHƏR DURAN KİMİ AC OLUR.
YEMƏK ÇOXDUR! OMAR VƏ BAŞQALARI HƏLƏ YATMAĞA GETMƏYİBLƏR.
SƏSİ EŞİTDİN?
HEÇ VAXT GÖRMƏMİŞDİM...
ÜSTÜMÜZƏ, ÜSTÜMÜZƏ... DÜZ ÜSTÜMÜZƏ GƏLİR!!!
TEZ ÇIXIN BAYIRA!
HARA GEDƏ BİLƏRİK?




ƏYYUB 1:19



MƏNİMLƏ ÇÖRƏK KƏSDİYİNƏ GÖRƏ ÇOX SAĞ OL!
TEZLİKLƏ GÖRÜŞƏRİK!
ƏYYUB, SƏHƏR QURBAN KƏSƏNDƏ SƏNİ GÖRDÜM.
SƏNİN KİMİ ÖZÜNÜ ALLAHA TAM HƏSR ETMİŞ ADAM YOXDUR.
SƏNDƏN NÜMUNƏ GÖTÜRÜRƏM.
ÇOX SAĞ OL, ELİHU.
MƏN DƏ SƏNDƏN NÜMUNƏ GÖTÜRÜRƏM.
ƏZİZİM, MƏNƏ YALTAQLANIRSAN.
YALTAQLANIRAM? HEÇ VAXT!
ŞƏHƏRDƏ DƏMİRÇİDƏN O QIZIL QABI NECƏ ALA BİLƏRƏM?
BİR AZ DA YALTAQLANSAN... İŞİN DÜZƏLƏCƏK!
AĞA! AĞA!


EBED, SƏNƏ NƏ OLUB?
CƏNAB... TƏKCƏ MƏN SAĞ QALMIŞAM...
SƏBALILAR QƏFLƏTƏN HÜCUM ETDİLƏR, HAMINI ÖLDÜRÜB HƏR ŞEYİ APARDILAR!
HƏ... SƏNƏ DƏ HÜCUM ETDİLƏR?
XEYR... GÖYDƏN ALOV YAĞDI!
BÜTÜN TARLALARI, SÜRÜLƏRİ, ÇOBANLARI MƏHV ETDİ. TƏKCƏ MƏN SAĞ QALDIM.
OLA BİLMƏZ!
TARUM? XOŞ XƏBƏRLƏ GƏLMİSƏN?
XALDEYLİLƏR HÜCUM ETDİLƏR!
BİZİ MÜHASİYƏRƏ ALADILAR, HAMINI QIRIB DƏVƏLƏRİ APARDILAR!
AĞA, DƏHŞƏTLİ HADİSƏ BAŞ VERİB!
BİLİRƏM, EŞİTMİŞƏM.
NÖKƏRLƏRİN HAMISI ÖLDÜRLDÜ. MAL-QARANI QIRDILAR, QALANINI DA APARDILAR. DƏHŞƏTDİR!
XEYR, AĞA. BUNDAN DA PİS HADİSƏ BAŞ VERİB.
BUNDAN DA PİS? BUNDAN PİS NƏ OLA BİLƏR, ŞET?

ƏYYUB 1:14-17


OĞULLARIN VƏ QIZLARIN BÖYÜK OĞLUNUN EVİNDƏ YIĞIŞIB BAYRAM EDİRDİLƏR...
BÖYÜK KÜLƏK GƏLDİ, EVİ DAĞITDI.
EV UÇDU... DAĞINTI ARASINDA SAĞ QALANLARI AXTAR-DIQ, ANCAQ HAMISI... HAMISI...
BUNU BİLİRƏM. MƏTLƏBƏ KEÇ!
YOX... VAY, YOX... YOX... YOX... YOX!
YOX!!! OLA BİLMƏZ!!!
YOX!!!
BALALARIM... ƏZİZ ÖVLAD-LARIM...



ƏYYUB 1:18-19



ƏYYUB 1:20






ƏYYUB 1:20


BIR NEÇƏ GÜN SONRA...


BU DÜNYAYA ÇILPAQ GƏLMİŞƏM!
ÇILPAQ DA GEDƏCƏYƏM!
RƏBBİN İSMİNƏ ALQIŞ OLSUN!
VERƏN DƏ RƏBDİR, ALAN DA RƏBDİR.
RƏBB, ADINA ŞÜKÜRLƏR OLSUN!
BİLMİRƏM BUNA NİYƏ İZİN VERDİN!
İNDİ YALNIZ SƏNDƏN GÜC VƏ TƏSƏLLİ DİLƏYƏ BİLƏRƏM...
BUNU MÖHÜRLƏ!



ƏYYUB 1:21-22


BAŞQA BİR GÜN İLAHİ VARLIQLAR RƏBBİN HÜZURUNA QALXMAQ ÜÇÜN GƏLDİLƏR.
ŞEYTAN DA ONLARA QOŞULUB RƏBBİN HÜZURUNA GƏLDİ.
SƏNƏ DEMİŞDİM Kİ, YER ÜZƏRİNDƏ QULUM ƏYYUB KİMİSİ YOXDUR.
ONU MƏNDƏN DÖNDƏRMƏYƏ ÇALIŞDIN, AMMA O, KAMİL OLARAQ QALIB.
SƏBƏB EYNİ OLARAQ QALIR.
ONA TOXUN-MAĞA İCAZƏ VERMƏDİN.
İNSAN CANINA GÖRƏ HƏR ŞEYİNİ VERƏR.
ƏLİNİ UZADIB ONUN ƏTİNƏ VƏ SÜMÜYÜNƏ TOXUN, O MÜTLƏQ SƏNƏ LƏNƏT EDƏCƏK.
ONU SƏNƏ TƏSLİM EDİRƏM.
SƏN ELƏ DÜŞÜNÜRSƏN Kİ, NƏTİCƏSİNİ BİLİRSƏN.
BƏLİ, ONUN AĞIR NƏTİCƏLƏRİ DƏ.
O, SƏNİN ƏLİNDƏDİR.
İSTƏDİYİNİ ET. ANCAQ CANINI ALMA.
ONUN AĞIR NƏTİCƏLƏRİ DƏ!


ƏYYUB, NƏ EDİRSƏN?
DƏRİM QAŞINIR. HEÇ BELƏ OLMA-MIŞDIM.
GET YAT.
AHHH... AĞRIYIR.
ƏYYUB, NƏ OLUB?
ƏYYUB?
AH, YOX...



YARADIR... HƏR YERIM...
DƏRİM, MƏDƏM... BAŞIM... NƏFƏSİM...
GÖR NƏ GÜNDƏ-SƏN!!!
YENƏ ALLAHA ŞÜKÜR EDİRSƏN?
AAHHH!!!
ĞĞAAHHH!!!
XIRT
ÇARƏ QIL... ÇARƏ QIL...
ƏYYUB!
ALLAHI LƏNƏT-LƏ!


LƏNƏT ET ALLAHA, ÖL QURTAR!!!
NƏ OLDU, ONİLLƏR ƏRZİNDƏ ALLAHDAN YAXŞILIĞI QƏBUL EDƏK, PİSLİYİ QƏBUL ETMƏYƏK?
LAP NADAN ARVADLAR KİMİ DANIŞIRSAN.
İNDİ İSƏ MƏN ONU DA İTİRİRƏM.


ƏYYUB 2:8


HƏR ŞEY BATDI...
SÜRÜLƏRİM,.. NÖKƏRLƏRİM... ÖVLADLARIM...
KÜL İÇİNDƏ QALDIM...


ORADA-DIR!!!
ORADA!!!
ƏMİNSƏN? BU Kİ HEÇ ADAMA OXŞAMIR!
ƏYYUB, EŞİDƏN KİMİ GƏLDİK!
ƏVVƏL HƏR ŞEYİN MƏHV OLDU, ÖVLADLA-RIN DA ÖLDÜ.
İNDİ DƏ BU!!!
ƏYYUB... NİYƏ BU BELƏ OLDU?
SƏNƏ BAŞSAĞLIĞI VERMƏYƏ GƏLMİ-ŞİK, DƏRDİNƏ ŞƏRİKIK.
ÇOX SAĞ OLUN... DOSTLA-RIM...


YEDDİ GÜN ƏRZİNDƏ DOSTLARI ONUN YANINDA OTURDULAR...
YEDDİ GECƏ ƏRZİNDƏ DƏ.
SONRA...
KAŞ Kİ MƏN DOĞULAN GÜN YOX OLAYDI!!!




ƏYYUB 3-4:11, 6:11


PİSLİK!!!
SƏN BUNA LAYİQ HƏRƏKƏT ETMİSƏN!
GECƏ RÖYALARDAN DOĞAN DÜŞÜN-CƏLƏR İÇİNDƏ OLANDA...
ÜZƏRİMƏ ENƏN BİR RUH QARŞIMDA DAYANIB MƏNƏ DEDİ:
ÖLÜMƏ MƏHKUM İN-SANLAR ALLAH QARŞISINDA SALEH OLA BİLƏRMİ?
MƏXLUQ OLAN İNSAN YARADANIN QARŞISINDA TƏMİZ OLARMI?
ALLAH ÖZ MƏLƏKLƏRİNDƏ BELƏ, SƏHV GÖRÜR. O, PALÇIQ EVLƏRDƏ YAŞAYANLARA, GÜVƏDƏN DƏ TEZ ƏZİLƏNLƏRƏ GÜVƏNƏRMİ?
MƏSLƏHƏTİM BUDUR, ƏYYUB. MƏN OLSAYDIM,
ALLAHA ÜZ TUTARDIM,
ALLAHIN TƏRBİYƏ ETDİYİ İNSAN NƏ BƏXTİYARDIR!
ELİFAZ, SƏNƏ BİR SÖZ DEYİM.
BƏXTİYAR? MƏN BƏXİYA-RAM?
ALLAH BUNU SƏNİN XEYRİNƏ EDİR. O YARALAYAR, SONRA İSƏYARALARI SARIYAR.
DƏHŞƏTLİ GÜNA-HINDAN TÖVBƏ ET, BƏRPA OLACAQ-SAN.


ÖVLADLARIMIN HAMISI ÖLÜB, BƏDƏNİM XƏSTƏLİKDƏN ÇÜRÜYÜR.
AMMA MƏN HEÇ VAXT ALLAHA ŞÜBHƏ ETMƏMİŞƏM, ONUN SÖZLƏRİNİ İNKAR ETMƏMİŞƏM!
BUNA LAYIQ ETDİYİM SƏHVİ MƏNƏ GÖSTƏR, DÜZƏLİM!
GÖSTƏRƏ BİLMƏZSƏN, ELƏ DEYİLMİ?
GÖZÜMÜN İÇİNƏ BAX, ELİFAZ!
GÖR HEÇ MƏN YALAN DANIŞIRAM? SALEHƏM MƏN!
EH ALLAH! BƏDƏNİMƏ QURD DÜŞÜB, QABIQLANIR, ÇATLAYAN DƏRİMDƏN İRİN AXIR!
AĞRI VƏ ƏZAB İÇİNDƏ SƏNİ ÇAĞIRIRAM! ÜRƏYİMDƏKİ DƏRDİ SƏN GÖRÜRSƏN!
ELİFAZIN DEDİYİ KİMİ, GÜNAH ETMİŞƏMMİ? GÜNAHIMI MƏNƏ GÖSTƏR!
GÖSTƏRƏN KİMİ TÖVBƏ EDƏCƏYƏM!
CANIM BOĞULUB-ÖLMƏYİ YAŞAMAQDAN ÜSTÜN TUTUR.
ƏYYUB?


SÖZLƏRİN SƏRT KÜLƏYƏ BƏNZƏR.
ALLAH ƏDALƏTSİZ OLMAZ!
TƏMİZ OLSAYDIN, O, SƏNƏ ÇOXDAN CAVAB VERMİŞDİ.
ATALARIMIZIN, ULU BABALARIMIZIN MÜDRİK SÖZLƏRİNİ YADINA SAL.
ÖMRÜMÜZ QISADIR, BUNA GÖRƏ DƏ, ƏCDADLARIMIZIN MÜDRİK SÖZLƏRİNDƏN ÖYRƏNMƏLİYİK.
SUSUZ BİTKİ NECƏ OLAR? ALLAHI UNUDAN ADAM DA BELƏDİR.
ALAQ OTUNU DÜŞÜNMƏDƏN KÖKÜNDƏN ÇIXARARLAR.
SONRA DA KƏNARA ATARLAR.
ALLAH GÜNAHSIZ ADAMI PİS GÜNƏ QOYMAZ.
PİSLİK EDƏNLƏRİ DƏ YÜKSƏLTMƏZ.
TÖVBƏ ET, ƏYYUB. ALLAH SƏNİN AĞZINI YENƏ GÜLÜŞLƏ DOLDURAR.



BİLDAD, YER ÜZÜNDƏ ƏN TƏMİZ, ƏN SALEH VƏ MÜQƏDDƏS ADAM OLSAM BELƏ, ONUN MƏRHƏMƏTİNƏ YENƏ DƏ EHTİYAC DUYACAĞAM.
ONUN KİMİ MÜQƏDDƏS ALLAH QARŞISINDA DAYANA BİLƏCƏYİM ÜÇÜN MƏNƏ MÜQƏDDƏS VƏSATƏTÇİ GƏRƏKDİR.
BUNU KİM EDƏ BİLƏR? ELƏ BİR ADAM YOXDUR!
ALLAH, MƏNİ YARATDIĞIN ƏLLƏRİNLƏ NİYƏ İNDİ MƏNİ MƏHV EDİRSƏN?
NƏ ÜÇÜN DÜNYAYA GƏLƏNDƏ MƏNƏ İŞIQ ÜZÜ GÖRMƏYƏ İMKAN VERDİN?
HƏYATIMDA NƏ ÜÇÜN BU QƏDƏR ZÜLMƏTƏ İZİN VERDİN? MƏNİ ƏVVƏLDƏN ZÜLMƏTDƏ SAXLAYA BİLƏRDİN.
SÖZLƏR! SÖZLƏR! SÖZLƏR!
SÖZLƏR BAĞIŞLANMA VƏ XILAS GƏTİRMİR!
SƏN ÖZÜNÜ SALEH, TƏMİZ ADLANDIRIRSAN. LAKİN BU SÖZLƏR SƏNİ SALEH ETMİR.
MƏN BUNU DEMİRƏM!
ALLAH YALANÇINI TANIYIR. ƏYYUB! ALLAH ŞƏR ADAMI GÖRÜR.
VƏHŞİ EŞŞƏK İNSAN OLARAQ DOĞULANDA AXMAQ DA AĞLA GƏLƏR.
SƏN BUNLARDAN HANSISAN, ƏYYUB? YALANÇI? ŞƏR ADAM? AXMAQ?


ƏYYUB 9-11:12






ƏYYUB 11:12-13:19




ƏYYUB 13:20-17:16


SƏNCƏ, BİZ AXMAĞIQ?
SÜBUTU ÖZ GÖZLƏRİMİZLƏ GÖRÜRÜK.
ŞƏR İNSANIN SONU BELƏ OLUR.
YANINDA FƏLAKƏT HAZIR DAYANACAQ, SONRA İSƏ ZÜLMƏTƏ APARILACAQ.
ONU GÖRƏNLƏR DƏHŞƏTƏ GƏLƏCƏK, ONUN ADI YER ÜZÜNDƏ UNUDULACAQ!
BAŞA DÜŞÜR-SƏN?
BƏLİ, İNDİ ELƏ BU BAŞ VERİR!
ÖZ EVİMDƏ ÖZGƏ KİMİYƏM.
MƏNƏ YAZIĞIN GƏLSİN, BİLDAD!
SOFAR VƏ ELİFAZ, MƏNİ RAHAT BURAXIN, MƏNƏ MƏR-HƏMƏT EDİN!
ELİHU, MƏNİ TƏK QOYMA!
AH, KAŞ Kİ MƏNDƏN SONRA YAŞAYANLAR ÜÇÜN SÖZLƏRİM YAZILAYDI, KİTABA KÖÇÜRÜLƏYDİ!
BİLİRƏM, XİLASKARIM SAĞDIR.
DƏRİM, ƏZƏLƏ VƏ SÜMÜK-LƏRİM YOX OLSA DA, MƏN ÜSTÜMDƏ ALLAHI GÖRƏ-CƏYƏM.
TƏKCƏ SƏNİ!!!


BƏDBƏXTLİYİN KÖKÜNÜ MƏNDƏ GÖRƏNLƏR İSƏ...
...QILINCDAN,
MÜHAKİMƏDƏN QORXMALIDIRLAR!
MƏNDƏ TƏQSİR VARSA, GÖRÜN SİZİN BAŞINIZA NƏ İŞ GƏLƏCƏK!
SİZİN... MƏN...
BUNU DEMƏYƏ NECƏ CƏSARƏTİN ÇATIR?
ŞƏR ƏMƏLLƏRİNƏ GÖRƏ CƏZA ALAN BİZ DEYİL, SƏNSƏN!
TƏQSİRKAR OLDUĞUMA GÖRƏ CƏZA ÇƏKDİYİNİ ÖZÜN DEYİRSƏN, ANCAQ TƏQSİRİNİ BOYNUNA ALMIRSAN!
TƏQSİRİNİ GİZLƏDİRSƏN, ƏYYUB.
PİSLİK AĞZINA ŞİRİN GƏLSƏ DƏ, DAMAĞININ ALTINDA GİZLƏTSƏN DƏ,
MƏDƏNDƏ QICQIRACAQ, ÇÜNKİ BU, ZƏHƏRDİR.
GÜNAHKARIN TALEYİ BİRDİR.
KİÇİK SƏRVƏTİNDƏN MÖHKƏM TUTDUĞU ZAMAN ALLAH ŞİDDƏTLİ QƏZƏBİNİ ONUN ÜZƏRİNƏ GÖNDƏRƏCƏK.
XƏZİNƏLƏRİNİN AQİBƏTİ QARANLIQ OLACAQ.
BU SƏNƏ AİDDİR.
SOFAR, MƏNƏ BAX!


MƏNİ İTTİHAMLAMAQDA DAVAM ETMƏK İSTƏYİRSƏNSƏ, GÖZ YAŞLARIMA, ÜZÜMDƏKİ ƏZABA BAX!
DEYİRSƏN Kİ, ŞƏR ADAM CAVAN ÖLƏR. YALANDIR!
YAĞIŞ HƏM SALEHLƏRİN, HƏM DƏ GÜNAHKARLARIN ÜZƏRİNƏ YAĞIR.
SƏBƏBİNİ BİLMİRƏM. TƏKCƏ ALLAH BİLİR. ONUN YOLLARINI HEÇ KİM ANLAMAZ.
ƏLBƏTTƏ, ALLAH SƏNİ MÜQƏDDƏS OLDUĞUNA GÖRƏ CƏZALANDIRMIR.
ŞƏR ADAMLAR GÜNAHLARINI ADAMLARDAN GİZLƏDƏ BİLƏRLƏR, ALLAHDAN İSƏ GÜNAHI GİZLƏTMƏK QEYRİ-MÜMKÜNDÜR.
ELİFAZ, MƏN ALLAHIN NİYYƏTLƏRİNİ ÖYRƏNMƏYƏ ÇALIŞMIŞAM.
ÖZÜN DEDİN Kİ, ALLAH ÜRƏYİNİ TANIYIR.
O BİLİR Kİ, MƏNƏ GÜNDƏLİK ÇÖRƏKDƏN ÇOX ONUN SÖZLƏRİ GƏRƏKDİR...
İNDİ İSƏ ALLAHIN SƏSİNİ EŞİTMİRƏM.


ADAMLAR ACLARI, KASIBLARI QARƏT EDƏRƏK ÖLDÜRÜRLƏR.
ADAM ADAMI ÖLDÜRÜR, KİŞİİLƏ QADIN ZİNA EDİR.
QARANLIQ ALTINDA ZÜLMƏT ADAMLARI QARA İŞLƏR EDİRLƏR.
ONLARLA MÜQAYISƏDƏ MƏN GÜNAHKAR DEYİLƏM. ALLAH İLƏ MÜQAYISƏDƏ İSƏ, MƏN GÜNAHKARAM.
ALLAHIN GÜCÜ MƏNDƏ OLSAYDI, BU ŞƏRİ ÖZÜMDƏN UZAQLAŞDIRARDIM.
ALLAH İSƏ UZAQLAŞDIRMIR. NİYƏ?
BƏLKƏ MƏN BUNA SEVİNMƏLİYƏM? GÜNAHIMLA BİRGƏ ALLAH MƏNİ DƏ MƏHV EDƏRDİ.
ƏYYUB, HEÇ ÖZ SÖZLƏRİNİ EŞİDİRSƏN?
SƏHV SÖZ DEDİM?
SƏHV DEMƏDİN. DÜZ DEYİRSƏN, ALLAH QÜDRƏTLİ, MÜQƏDDƏS VƏ PAKDIR.
BƏS İNSAN?
İNSAN İSƏ SÜRFƏDİR, ƏYYUB!
ƏYYUB, ALLAHIN GÖZÜNDƏ SƏN BİR TORPAQ QURDUNA BƏNZƏYİRSƏN.
NƏ GÖZƏL SÖZ DEDİN, BİLDAD!






ƏYYUB 26-28:11


QIZILLA GÜMÜŞÜ ALMAQ OLAR.
QIZILLA GÜMÜŞÜ TAPMAQ OLAR.
QIZILLA GÜMÜŞÜ ALIB-VERMƏK OLAR.
QIZIL İLƏ GÜMÜŞ OĞURLANA BİLƏN XƏZİNƏDİR.
BU XƏZİNƏ İTƏ BİLƏR.
AXIRDA BU XƏZİNƏ ƏLDƏN ÇIXACAQ.
ƏN BÖYÜK XƏZİNƏ İSƏ BELƏ DEYİL.
ƏN BÖYÜK XƏZİNƏ NƏDİR?
MÜDRİKLİK!
BU, ƏCDADLARIMIZDAN GƏLƏN BİLİK VƏ YA MÜŞAHİDƏ DEYİL.
MÜDRİKLİK HARADAN GƏLİR?
MÜDRİKLİK ALLAHDAN QORXMAQDIR. GÜNAHDAN QAÇMAQ MÜDRİKLİKDİR.
MÜDRİKLİK – ALLAHIN İSTƏDİYİ KİMİ HƏYATI ANLAMAĞA ÇALIŞMAQDIR.
ALLAHA YAXIN YAŞADIĞIM GÜNLƏRİ NECƏ DƏ ARZULAYIRAM!
O GÜNLƏRDƏ QARANLIQ DÖVRLƏRİMDƏ BELƏ, ONUN NURUNDA OLMUŞAM.






ƏYYUB 29:7-30:1


ALLAH DAHA MƏNƏ XEYİR-DUA VERMİR.
XEYİR AXTARARKƏN ŞƏRİ TAPIRAM.
İŞIĞI AXTARARKƏN ZÜLMƏTİ TAPIRAM.
KÖMƏYƏ ÇAĞIRIRAM, AMMA HEÇ KİM HAY VERMİR.
SİZDƏN BAŞQA HEÇ KİM...
BİR DƏFƏ MƏN MUSİQİÇALIRDIM, ADAMLAR DA MƏNİMLƏ RƏQS EDİRDİLƏR.
İNDİ İSƏ MƏN MƏRSİYƏ OXUYURAM, SİZ İSƏ MƏNDƏ GÜNAH AXTARIRSINIZ.
ÇÜNKİ VƏZİYYƏTİMİN SƏBƏBİ YALNIZ GÜNAH OLA BİLƏR...
XEYR!!!
ARVADIMA SADİQ ƏR OLMUŞAM, BAŞQA QADINA HEÇ BAXMAMIŞAM!
HƏMİŞƏ DÜZ SÖZ DANIŞMIŞAM.
EHTİYACDA OLANA KÖMƏK ETMİŞƏM.
DÜŞMƏNİN BƏLASINA HEÇ VAXT SEVİNMƏMİŞƏM.


İNAN MƏNƏ, ALİ HAKİM SƏN DEYİLSƏN, ALLAHDIR!
MƏNİM HAQQIMDA DEDİKLƏRİNDƏN BİR SÖZ BELƏ, DÜZGÜNDÜRSƏ, NƏ ÜÇÜN ALLAH MƏNİ ƏVVƏLLƏR CƏZALANDIRMIRDI?
ƏVVƏLLƏR BELƏ ŞEY GÖRMƏMİŞDİM, AMMA...
BİR DAHA DEYİRƏM, ALLAHIN YOLLARINI NECƏ BİLMƏK OLAR?
SƏN CƏZA ÇƏKİRSƏN. BƏS, SƏBƏB...
BƏSDİR!!!
DOSTLARIM, MƏN SİZDƏN YAŞDA KİÇİYƏM, BUNA GÖRƏ DƏ SUSURDUM.
SİZDƏ OLAN MÜDRİKLİK HƏLƏ Kİ, MƏNDƏ YOXDUR.
ANCAQ MƏNƏ ELƏ GƏLİR Kİ, HƏMİŞƏ BELƏ OLMUR.
ELİHU, BİZİM HƏYAT TƏCRÜBƏMİZ SƏNİNKİNDƏN DAHA ÇOXDUR...
EY TƏCRÜBƏLİ VƏ MÜDRİK ADAMLAR, SİZ ƏYYUB İLƏ YALNIZ MÜBAHİSƏ EDİRSİNİZ VƏ
...ONUN SƏHV OLDUĞUNU ONA ANLADA BİLMİRSİNİZ!
GİZLİ GÜNAHA GÖRƏ ONU İTTİHAM EDİRSİNİZ!
SAĞ OL, ELİNU...
MƏNƏ "SAĞ OL" DEMƏ, ƏYYUB.
SƏNƏ DEMƏYƏ SÖZÜM VAR!


ŞİKAYƏT EDİRSƏN Kİ, ALLAH SƏNƏ CAVAB VERMİR VƏ BU VƏZİYYƏTİİZAH ETMİR.
LAKİN ALLAH DANIŞIR. SADƏCƏ, SƏNİN İSTƏDİYİN VƏ YA GÖZLƏDİYİN KİMİ DANIŞMIR!
YUXU... SÖZLƏR... MƏLƏK...
TƏCRÜBƏLƏR, ADƏT, CƏZA...
ALLAH DANIŞANDA ÖZÜNÜ DAHA ÇOX AÇIQLAYIR!
ALLAH CƏZA VERƏNDƏ SƏNİ ÖZÜNƏ TƏRƏF GƏTİRMƏK İSTƏYİR!
BİZDƏ OLAN NEMƏTLƏRƏ HEÇ BİRİMİZ LAYİQ DEYİLİK!
ALLAH HƏR BİR İŞİ BİZİ ZÜLMƏTDƏN NURA GƏTİRMƏK ÜÇÜN EDİR!
ELIHU, MƏNDƏ TƏQSİR YOXDUR. ANCAQ ALLAH MƏNİ RƏDD EDİR VƏ ÇAĞIRIŞIMA CAVAB VERMIR!
O, SƏNİ RƏDD ETMİR!
ALLAH YALANÇININ DUALARINA CAVAB VERMİR...
TƏKƏBBÜRLƏ DANIŞMIR...
SƏNƏ NƏ ÜÇÜN CAVAB VERMƏLİDİR? GÖZLƏMƏKDƏN YORULMUSAN, ONA GÖRƏ?


ALLAH ADAMLARA ZÜLM VERƏN DEYİL!
O, MÜƏLLİMDİR, GÖZƏL MÜƏLLİM. ÖYRƏTDİYİ QANUNU O, ÖZÜ YARADIB.
BÜTÜN KAİNAT ONUN QARŞISINDA CAVABDEH-DİR.
ŞİMŞƏK ONUN SƏSİİLƏ MÜQAYİSƏ OLUNA BİLMƏZ.
YAĞIŞA, QARA O ƏMR EDİR.
ONUN NƏFƏSİİLƏ MÜQAYİSƏDƏ KÜLƏK HEÇ NƏDİR.
SƏN DƏ DEYİRSƏN, ALLAH SUSUR?
O, BURA-DADIR, ƏYYUB!
O, DANIŞIR!
BƏZİLƏRİİLƏ MÜQAYİSƏ-DƏ AXMAQ OLSAM DA, SƏNİN SÖYLƏDİKLƏRİN SƏFEH SÖZLƏRİ DEMƏK QƏDƏR AXMAQ DEYİLƏM.
ALLAH QÜDRƏTLİ, ƏDALƏTLİ VƏ SALEHDİR.
ONDAN QORXMAQ DÜZGÜN-DÜR.
BELƏ TUFANLARA ƏMR EDƏN ALLAH QARŞISINDA DİZ ÇÖKMƏK DÜZ-GÜNDÜR.
BƏLİ...


BƏLİ...
BƏLİ...


ƏYYUB?
BƏLİ, RƏBB?
ƏYYUB...
HƏR ŞEYİ BİLƏN ŞƏXS KİMİ DANIŞIR-SAN.
LAKİN SÖZLƏRİNDƏ MƏNİM MÜDRİK-LİYİM ÇATMIR.
SƏFEH SÖZLƏRİNƏ CAVAB VERİRDİM...
ƏYYUB!!!
SƏNİNLƏ DANIŞIRAM!
ONLARLA DANIŞMI-RAM!
BƏLİ, RƏBB.


İNDİ SƏNƏ MƏN SUAL VERƏCƏYƏM. İSTƏYİRƏM MƏNƏ CAVAB VERƏSƏN.
BƏLİ, RƏBB.
MƏN... ÇALIŞA-RAM.
MƏN YERİ, GÖYÜ YARADANDA, ULDUZLARA İŞIQ VERƏNDƏ...
SƏN HARADA İDİN?
YARADILIŞI İZAH EDƏ BİLƏRSƏNMİ?
DÜNYANI YARATMISANMI? İŞIĞI QARANLIQ-DAN AYIRMI-SANMI?
DƏRİNLIKLƏRİN SƏTHİNİ GƏZMİSƏNMİ?
ULDUZLARI YERİNƏ QOYA BİLƏRSƏNMİ?



ƏYYUB 38:39–40:14




ƏYYUB 40:15-40:24


BƏS, LEVYATAN!?
ONU QARMAQLA TUTA BİLƏR-SƏNMİ?
ONU ÖZÜNƏ TABE ETDİRƏ BİLƏRSƏNMİ?
ONUN DƏRİSİ ZİREH, SİNƏSİ QAYA KİMİDİR!

ƏYYUB 41:1-34


BU MƏXLUQLARI MƏN YARATDIM VƏ HEÇ KİM ONLARA QARŞI DAYANA BİLMƏZ!
BƏS, MƏNƏ QARŞI KİM OLA BİLƏR?
ƏYYUB, MƏN KAİNATI YARATMIŞAM. MƏN YERİ DÜZƏLTMİŞƏM.
ONU BÖYÜK VƏ KİÇİK MƏXLUQLARLA DOLDURMUŞAM.
MƏN SƏNİ YARATMI-ŞAM.
MƏNƏ ETİBAR ET.
ƏYYUB 38-41


BİLİRƏM, SƏN HƏR ŞEY EDƏ BİLƏRSƏN.
BİLİRƏM, YOLLARIN İNSAN DƏRRAKƏSİNDƏN ÜSTÜNDÜR.
SUAL VERDİN: SƏNİN MÜDRİKLİYİN, QÜDRƏTİN VƏ SALEHLİYİN KİMDƏ VAR...
TAM MƏNZƏRƏDƏN XƏBƏRSİZ OLARAQ SƏNƏ SUAL VERƏN KİM İDİ?
MƏN.
BAĞIŞLA.


VERDİYİN SUALLARA CAVAB VERƏ BİLMƏRƏM. CAVABLARI YALNIZ SƏN VERƏ BİLƏR-SƏN.
İNDİYƏ QƏDƏR, EŞİTDİKLƏRİMƏ GÖRƏ SƏNƏ EHTİ-RAM ETMİŞƏM.
İNDİ İSƏ SƏNİ ÖZ GÖZLƏRİMLƏ GÖRDÜM VƏ QULAQLARIMLA SƏSİNİEŞİTDİM.
BAĞIŞLA MƏNİ!
SƏNİN MÜDRİK-LİYİN MƏNDƏ YOXDUR, LAKİN MƏN SƏNƏ ETİBAR EDƏ BİLƏRƏM.
ÖZÜMƏ, DAXİLİMƏ BAXIRDIM. İNDİ İSƏ SƏNƏ BAXIRAM!
ƏYYUB, SƏNƏ QƏZƏBLƏN-MİRƏM.
MƏNƏ SUALLAR VERDİN, MƏNİM BARƏMDƏ SORUŞ-DUN. ANCAQ MƏNƏ QARŞI HEÇ VAXT DANIŞMADIN.
SƏN MƏNİM QULUM, MƏNİM DOSTUMSAN.
DOSTLARIN İSƏ...


ƏYYUB İLƏ DANIŞANDA ONU BAŞA SALIRDIM, ONA QƏZƏBLI DEYİLDİM.
SİZ İSƏ MƏNİ QƏZƏBLƏN-DİRDİNİZ.
SİZ MƏNİM QÜDRƏTİM, ƏDATƏTİM BARƏDƏ DANIŞDINIZ, SƏLAHİYYƏTİM VƏ MƏRHƏMƏTİM BARƏDƏ İSƏ SUSDUNUZ.
SİZ ƏYYUBA "YALANÇI, İKİÜZLÜ, GÜNAHKAR" DEDİNİZ, ONU CƏZALANDIRDIĞIMI SÖYLƏDİNİZ.
MƏNİM BARƏMDƏ ƏYYUB KİMİ DÜZGÜN DA-NIŞMADINIZ.
HƏR BİRİNİZ YEDDİ BUĞA VƏ YEDDİ QOÇ QURBAN GƏTİRİN.
ƏYYUB SİZİN ÜÇÜN YALVARANDA DUASINI QƏBUL EDƏCƏYƏM. LAYİQ OLDUĞUNUZU SİZƏ VERMƏYƏ-CƏYƏM.
TÖVBƏ EDİN.


KƏDƏR VAXTI BİTDİ.
MƏNCƏ... EVƏ GETMƏK VAXTIDIR.
ƏYYUB, YAXŞISAN?
BƏLİ VƏ XEYR.
HƏLƏ DƏ, AĞRIM VAR, UŞAQLARIMA GÖRƏ QƏM-LİYƏM.
ƏYYUB?
ALLAHIN TAPŞIRDIĞINI EDƏCƏKSİNİZSƏ, SİZİ EVDƏ GÖZLƏYƏ-CƏYƏM.

ƏYYUB 42:9


GƏL, ƏYYUB, SƏNİ EVƏ APARAQ.
ƏYYUB?
NƏ BAŞ VERİR?
MƏN... BİLMİRƏM.
DAHA BİRŞEYİ BAŞA DÜŞƏ BİLMİRƏM.
DAHA BİR ŞEYƏ GÖRƏ DƏ RƏBBƏ ŞÜKÜR ETMƏLİYƏM.






ƏYYUBUN DOSTLARI RƏBBİN SÖYLƏDİYİ KİMİ ETDİLƏR.
ƏYYUB DA, RƏBBİN SÖYLƏDİYİ KİMİETDİ.
RƏBB, DOSTLARIM ÖZ QURBANLARI İLƏ SƏNİN QARŞIN-DADIRLAR.
GÜNAHLARINI ETİRAF VƏ TÖV-BƏ EDİRLƏR.
SƏNƏ QARŞI ETDİKLƏRİ GÜNAHA GÖRƏ BU QURBAN-LARI GƏTİRİRLƏR.
RƏBB DƏ VERDİYİ SÖZÜ YERİNƏ YETİRDİ.



HEÇ BİLİRSƏN, NƏ ÜÇÜN BUN-LARIN HAMISI BAŞ VERDİ?
ƏYYUB, SƏNİ ÖYRƏTMƏK ÜÇÜNMÜ?
BİZƏ DƏRS ÖYRƏTMƏK ÜÇÜN?
YAXUD BİZDƏN SONRA GƏLƏNLƏR ÜÇÜN?
OLA BİLSİN, HAMI ÜÇÜN...
DƏRK EDƏ BİLMƏDİYİMİZ BAŞQA SƏBƏB-LƏR DƏ VAR.
BÜTÜN BU VAXT ƏRZİNDƏ ALLAHIN QARŞISINDA SƏNİN ÜÇÜN DUA EDƏ BİLƏN BİR KƏS BARƏDƏ SORUŞURDUN.
İNDİ İSƏ, ETİ-BARSIZ ÇIXANDAN SONRA BİZƏ GÖRƏ DUA ET.
RƏBBİN BƏRƏKƏTİ ÜZƏRİNDƏ-DİR, DOSTUM.
SİZƏ DOST OLMAQ BÖYÜK ŞƏRƏFDİR.
O SÖZLƏRİ-MİZDƏN SONRA BİZƏ NİFRƏT ETMİRSƏN?
ALLAHA LAYİQİNCƏ DÜZGÜN MÜNASİBƏT GÖSTƏRSƏK BELƏ, ALLAH DA BİZƏ NİFRƏT ETMİR!


ƏYYUB 42:9


ELİHU, DƏSTƏYİNƏ GÖRƏ ÇOX SAĞ OL.
YAXŞI DOSTSAN.
AZ QALDI SƏNİ DOST-LUQDAN ÇIXARAQ.
QORXUR-DUM ALLAH SƏNİ MƏNDƏN AYIRAR.
BUNU İSTƏYİR-DİM... SONRA İSƏ O DANIŞMAĞA BAŞLADI.
SƏNƏ CAVAB VERMƏSİNİ İSTƏYİRDİM.
O, CAVAB VERDİ.
BƏS, DEDİN, SƏBƏBİ BİL-DİRMƏDİ?
MƏNİM İSTƏDİYİM CAVABI VERMƏDİ, LAKİN MƏNƏ LAZIM OLAN CAVABI VERDİ.




ƏYYUB 42:11-17